

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 152 (23.314)

17 avqust 2019-cu il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 16 avqust tarixli Sərəncamı ilə Azərbaycan Respublikası sərhəd-mühafizə orqanlarının yaranmasının 100 illiyi münasibətilə və dövlət sərhədinin mühafizəsinin təmin edilməsində, ərazi bütövlüyünün qorunub saxlanılmasında və sərhəd-mühafizə orqanları qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları təltif edilmişlər. Təltif olunanlar arasında "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının hərbi qulluqçuları da vardır.

**Tağıyev Niyaməddin Məhərrəm oğlu – general-mayor**
3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə,

**Bədəlov Fərhad Hacı oğlu – polkovnik-leytenant**
"Vətən uğrunda" medalı ilə,

**Şükürüllayev Təyyar Elməddin oğlu – polkovnik-leytenant**
"İgidliyə görə" medalı ilə,

**Abbasov Əhməd Ramazan oğlu – polkovnik-leytenant**
**Rəhimov İsrafil Əvəz oğlu – polkovnik-leytenant**

"Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişlər.

## Əhalinin Siyahıyaalınmasına Yardım Komissiyasının iclası keçirilib

*Avqustun 16-da Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsində muxtar respublikada əhalinin siyahıyaalınması üzrə görülmüş hazırlıq işləri və qarşıda duran vəzifələr barədə iclas keçirilmişdir.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini, əhalinin siyahıyaalınmasına yardım komissiyasının sədri Azər Zeynalov çıxış edərək demişdir ki, Naxçıvan Muxtar Respublikasında iqtisadi və sosial sahələrdə qazanılan uğurlar əhalinin rifah halının, o cümlədən demoqrafik göstəricilərin yaxşılaşmasına mühüm təsir göstərməkdədir. Əhali haqqında demoqrafik, iqtisadi və sosial məzmunlu daha geniş məlumatların əldə edilməsi məqsədilə həyata keçirilən siyahıyaalma dövlətin milli statistikasının əsasını təşkil etməklə ən vacib məlumat mənbələrindən biri hesab edilir. Respublikada əhalinin növbəti dəfə siyahıyaalınması Azərbaycan Respublikası Prezidentinin "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında" 2016-cı il 7 sentyabr tarixli Fərmanına əsasən 2019-cu il oktyabrın 1-dən 10-dək keçiriləcəkdir. Siyahıyaalma vahid prinsiplər və proqram əsasında bütün ərazidə, eyni zamanda adbaad, mərkəzləşdirilmiş qaydada sorğu yolu ilə aparılacaqdır.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasında əhalinin siyahıyaalınması üzrə hazırlıq işlərinin görülməsi, həyata keçirilməsi, bu sahədə müvafiq nazirlik, komitə, idarə və təşkilatların, şəhər və rayon icra hakimiyyəti orqanlarının fəaliyyətini əlaqələndirmək məqsədilə 2016-cı il 26 dekabr tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən "Naxçıvan Muxtar Respublikasında əhalinin siyahıyaalınmasına yardım komissiyasının yaradılması haqqında" Sərəncam imzalanmışdır. Müvafiq sərəncamın icrası istiqamətində Naxçıvan Muxtar Respublikasında əhalinin siyahıyaalınmasına yardım komissiyasının iş planı təsdiq edilmişdir. İş planında yerinə yetiriləcək işlər müəyyənləşdirilmiş, şəhər və rayon icra hakimiyyətlərində əhalinin siyahıyaalınmasına yardım komissiyaları yaradılmış, icraya məsul orqanlara konkret tapşırıqlar verilmiş, müvafiq tədbirlər həyata keçirilmişdir. Təqvim üzrə digər işlər hazırda davam etdirilir. Muxtar respublikada bu günədək siyahıyaalmanın mütəşəkkil təşkili üçün 42 adda müxtəlif materiallar, sorğu vərəqələri, sayıcı çantaları alınmış, şəhər və rayonlar üzrə ümumi bölgüsü aparılmışdır. Müəyyənləşdirilmiş say həcmində dəftərxana və digər yardımçı ləvazimatların alınması isə yaxın zamanda həyata keçiriləcəkdir. Naxçıvan Muxtar Respublikasında bu mühüm dövlət tədbirinin vaxtında, operativ və yüksək keyfiyyətlə həyata keçirilməsi qarşıda duran ən önəmli vəzifələrdən biridir.



Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri Vaqif Rəsulov çıxış edərək demişdir ki, mühüm dövlət tədbirinin əsas iştirakçısı kimi əhalinin siyahıyaalınması ilə bağlı hazırlıq işlərinin görülməsi və onun keçirilməsi, yekunlarının işlənilməsi, nəticələrinin dərc edilərək yayılması Dövlət Statistika Komitəsinə həvalə olunmuşdur. Muxtar respublikanın şəhər və rayonlarında siyahıyaalma ilə əlaqədar hazırlıq işlərinin və nəzərdə tutulmuş digər tədbirlərin vaxtında yerinə yetirilməsi, qarşıya çıxan çətinliklərin operativ surətdə aradan qaldırılması və onun mütəşəkkil keçirilməsini təmin etmək məqsədilə şəhər və rayon icra hakimiyyəti başçıları müavinlərinin sədrliyi ilə əhalinin siyahıyaalınmasına yardım komissiyaları yaradılmışdır. Bununla yanaşı, Dövlət Statistika Komitəsi tərəfindən əhalinin siyahıyaalınması ilə bağlı hazırlıq işlərinin görülməsi və onun keçirilməsini, yekunlarının işlənilməsini təmin etmək məqsədilə siyahıyaalma qrupu yaradılmışdır. İş planına əsasən təqvim üzrə nəzərdə tutulan tədbirlər həyata keçirilmiş, o cümlədən muxtar respublikanın şəhər və rayonlarının yaşayış məntəqələri üzrə sxematik plan və xəritələrin



hazırlanması təmin edilmiş, hər bir inzibati ərazi vahidi üzrə təşkilati planlar hazırlanmışdır. Təşkilati plana əsasən şəhər, qəsəbə və kənd yerləri üzrə siyahıyaalma məntəqələrinin, təlimatçı və sayıcı məntəqələrinin tərkibləri müəyyənləşdirilərək siyahıyaalmanın rayonlaşdırılması başa çatdırılmışdır. Mövcud qanunvericiliyə uyğun olaraq muxtar respublika üzrə 9 şəhər, 24 kənd siyahıyaalma məntəqəsi, 91 şəhər, 218 kənd təlimatçı məntəqəsi, 455 şəhər, 1088 kənd sayıcı məntəqəsi yaradılmışdır. Ötən dövrdə aidiyyəti strukturlarla birlikdə komissiyanın iş planında nəzərdə tutulmuş tədbirlərin təqvim üzrə həyata keçirilməsi təmin olunmuş və bu istiqamətdə işlər davam etdirilir.

Sonra şəhər və rayon icra hakimiyyətlərində yaradılmış əhalinin siyahıyaalınmasına yardım komissiyalarının sədrləri görülmüş işlər barədə məlumat vermişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini, əhalinin siyahıyaalınmasına yardım



komissiyasının sədri Azər Zeynalov iş planına uyğun olaraq bundan sonra da qarşıda duran vəzifələri diqqətə çatdırmışdır. Qeyd olunmuşdur ki, 2019-cu il sentyabr ayının 1-dək Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi yerli icra hakimiyyəti orqanları ilə birlikdə rayon (şəhər) üzrə siyahıyaalma məntəqələrinin işinə cəlb ediləcək şəxslərin seçilməsini və müvafiq siyahıların yerli icra hakimiyyəti ilə razılaşdırılaraq təsdiq edilməsini təmin etməli, siyahıyaalma məntəqələrinin işinə cəlb ediləcək şəxslərlə mülki-hüquqi müqavilələr bağlamalıdır. Həmçinin sentyabr ayında Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi yerli icra hakimiyyəti orqanları ilə birlikdə əhalinin siyahıyaalınmasına cəlb edilmiş işçilərin təlimatlandırılması üçün təlimlər keçirməli, şəhər və rayon icra hakimiyyətləri əhalinin siyahıyaalınmasına hazırlıq, onun keçirilməsi və siyahıyaalma materiallarının qəbul edilib saxlanması üçün siyahıyaalma məntəqələrini telefon və digər zəruri avadanlıqla təchiz olunmuş binalarla təmin etməlidirlər. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi, Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsi, "Şərq qapısı" qəzetinin redaksiyası əhalini məlumatlandırmaq məqsədilə siyahıyaalmanın hazırlıq işlərinin gedişi, əhəmiyyəti və məqsədi barədə materiallar verməlidirlər. Bundan əlavə, siyahıyaalmaya çağırış üzrə təbliğat materialları Naxçıvan şəhərində, rayon və kənd mərkəzlərində əvvəlcədən müəyyənləşdirilmiş elan guşələrində yerləşdirilərək əhali məlumatlandırılmalıdır.

Azər Zeynalov qeyd etmişdir ki, 2019-cu ilin 1-10 oktyabr tarixlərində muxtar respublika üzrə əhalinin ümumi siyahıyaalınması həyata keçirildikdən sonra cari ilin sonunadək siyahıyaalmanın ilkin yekunları hesablanmalı və Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinə təhvil verilməlidir. İş planına uyğun olaraq növbəti ilin sonunadək siyahıyaalma materialları elektron məlumat sisteminə daxil edilməli və müxtəlif göstəricilər üzrə yekun nəticə hazırlanmalıdır.

Sonra iclas iştirakçıları əhalinin siyahıyaalınması ilə bağlı istifadə olunacaq ləvazimatlara baxmışlar.

**"Şərq qapısı"**

## Aqrar sahə ilə bağlı müşavirə olub

*Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasında verilmiş tapşırıqlarla əlaqədar 2019-cu ildə muxtar respublikada payızlıq taxıl əkinlərinin aqrotexniki qaydalara uyğun aparılması və hazırlıq işlərinə dair müşavirə keçirilib.*

Müşavirəni giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Elşad Əliyev açaraq bildirib ki, aqrar sahədə sistemli şəkildə həyata keçirilən kompleks tədbirlər nəticəsində artıq son bir neçə ildir ki, əhalinin əksər kənd təsərrüfatı məhsullarına olan tələbatının daxili istehsal hesabına ödənilməsi təmin edilib. 2019-cu ilin məhsulu üçün əkilmiş 33 min 308 hektar taxıl sahəsindən 102 min 984 ton məhsul tədarük edilib, məhsuldarlıq orta hesabla hər hektardan 30,9 sentner olub.

Qeyd olunub ki, hazırda muxtar respublikada taxılçılıqla məşğul olan sahibkarları keyfiyyətli toxumla təmin etmək üçün "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyəti və Akademik Həsən Əliyev adına "Araz"



Elm-İstehsalat Birliyinin yardımçı təsərrüfatı fəaliyyət göstərir.

Vurğulanıb ki, 2020-ci ilin məhsulu üçün cari ilin payızında muxtar respublikada 32 min hektar sahədə şum aparılaraq taxıl əkini keçirilməsi nəzərdə tutulur. Payızlıq taxıl əkini ilə əlaqədar şum və səpin aparmaq üçün 1032 ədəd təkərli, 99 ədəd tırtıllı, 115 ədəd taxılsəpən, 33 ədəd toxumtəmizləyən, 430 ədəd kotan, 296 ədəd lafet, 22 ədəd çizel və şırımaçan texnika saz vəziyyətə gətirilib. Cari ildə bütün taxıl sahələrinin şırım üsulu ilə əkilməsi nəzərdə tutulur. Payızlıq taxıl əkininin aparılması üçün muxtar respublikanın torpaq mülkiyyətçilərinə 5000-5500 ton toxum tələb olunur. Bunun üçün "Bərəkət Toxumçuluq" təsərrüfatında 600 ton, Akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyinin yardımçı təsərrüfatında isə 100 ton yüksəkkeyfiyyətli buğda və arpa toxumları mövcuddur. Yerli təsərrüfat sahibləri də özləri üçün toxum ehtiyatı tədarük ediblər. Bundan əlavə, ölkəmizdəki digər toxumçuluq təsərrüfatlarından muxtar respublikanın torpaq-iqlim şəraitinə uyğun elit və 1-ci reproduksiyalı buğda və arpa toxumları gətiriləcək.

Müşavirədə çıxış edən Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı naziri Bəhruz Bayramov bildirib ki, qısa müddət ərzində biçin kampaniyası başa çatıb. 102 min 984 ton taxıl istehsal edilib ki, bunun da 25,7 min tonu arpa, 77,2 min tonu buğda olub. Arpada məhsuldarlıq hər hektarda 28,5, buğdada isə 31,2 sentner olub.

Bəhruz Bayramov qeyd edib ki, 2020-ci ilin məhsulu üçün əkin sahələrinin hazırlanması və toxum səpini kampaniyasına az bir zaman qalıb. Görülən hazırlıq işləri deməyə əsas verir ki, növbəti səpin kampaniyası da uğurla həyata keçiriləcək.

"Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Cəfər Müzəffərov çıxışında qeyd edib ki, 2018-ci ilin payızında təsərrüfatda 2019-cu ilin məhsulu üçün 1037 hektar torpaq sahəsində taxıl əkini müasir və səmərəli becərmə üsulu olan şırım üsulu ilə aparılıb. Göstərilən yüksək aqrotexniki qulluq nəticəsində 2500 tona yaxın məhsul istehsal olunub. Bu günə qədər 600 ton toxum vim aqreqatından keçirilərək dərmanlanıb və paketlənərək satışa hazır edilib, 2020-ci ilin məhsulu üçün 600 hektar sahədə şum aparılıb, şumlama işləri, toxum təmizlənməsi, dərmanlanması davam etdirilir.

Müşavirədə mövzu ilə bağlı müzakirələr aparılıb, suallar cavablandırılıb, qarşıda duran vəzifələr müəyyənləşdirilib.

**Nail ƏSGƏROV**

*Qədim Şərq müdriklərinin belə bir kəlamı var: "İnkişafa gedən yol təhsildən keçir". Son illər diyarımızda əldə olunan hərtərəfli inkişaf və tərəqqinin də təməlində məhz müasir və mütərəqqi təhsil sisteminin formalaşdırılması, intellektual gəncliyin yetişdirilməsi dayanır. Bunu bu gün muxtar respublikanın 200-dən artıq təhsil ocağında yaradılan, müasir və innovativ yeniliklərə dayanan şərait, gənclərin savadlı, zəngin dünyagörüşlü və vətənpərvər ruhda böyüməsi üçün mütərəqqi və milli əsaslara söykənən yeni təhsil metodlarından səmərəli istifadə bir daha təsdiq edir. Bununla yanaşı, müəllimlərin müsabiqə yolu ilə işə qəbulunun tətbiqi də təhsildə keyfiyyət amilinin daha da yüksəldilməsinə zəmanət verir. Bütün bunların nəticəsidir ki, uğurlu təhsil islahatlarının əsas göstəricisi olan ali məktəblərə qəbul hər il yüksək nəticələrlə özünü büruzə verir.*

***Təhsil millətin gələcəyidir***

# Sağlam və etibarlı gələcək naminə



Ümummilli liderimiz Heydər Əliyev demişdir: ***"Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, mənafelər əsasında qurulmalıdır".*** Ötən əsrin 90-cı illərində Azərbaycan təhsili ulu öndərimizin bu müddəasına əsaslanan islahatlar nəticəsində əsl inkişaf mərhələsinə qədəm qoydu. Ulu öndərin uzaqgörən siyasi kursunun layiqli davamçısı olan prezident İlham Əliyevin ***"Təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının ən öncül istiqamətlərindən biridir"*** konsepsiyası isə milli təhsilimizin davamlı inkişafını təmin etdi. Müstəqillik illərindən başlayaraq Azərbaycan təhsilində sistemli islahatlar aparılması ilə yanaşı, təhsilə dövlət tərəfindən ayrılan xərclərin həcmi də ölkədəki ümumi iqtisadi inkişafa paralel şəkildə dəfələrlə artırıldı.

Ölkəmizin bütün bölgələrini əhatə edən təhsil islahatları muxtar respublikamızda da 1995-ci ildən etibarən bu sahədə ciddi nailiyyətlərin əldə olunması ilə nəticələnib. Bu dövr ərzində Naxçıvan Muxtar Respublikasında 200-dən çox ümumtəhsil məktəbi tikilib və ya yenidən qurulub, təhsil müəssisələri müasir kompüterlər, elektron lövhələr və digər İKT avadanlıqları ilə təmin olunub. Bu illər ərzində ümumtəhsil məktəblərinə 5500 dəstdən çox müasir kompüter verilib və onların böyük əksəriyyəti internetə qoşulub. Bununla yanaşı, təhsilin informasiya mühitinin və əyaniliyin yaradılması məqsədilə ümumtəhsil məktəblərində 600-dən çox elektron lövhə quraşdırılıb. Sadaladığımız bu məqsədyönlü işlər müntəzəm xarakter alıb və günümüzdə də uğurla davam etdirilir. Başqa sözlə ifadə etsək, bu gün böyük uğurlarla qeyd etdiyimiz Naxçıvan Muxtar Respublikasının 95 illik tarixinə qızıl hərflərlə yazılan son 24 ildə əldə olunan hərtərəfli inkişafın təməlində təhsil sahəsi də xüsusi yer tutur. "Hər kəs mükəmməl təhsil almalıdır!" şüarı muxtar respublikada həyata keçirilən təhsil islahatlarının əsasını təşkil edir. Bu gün ən ucqar dağ kəndində belə, ümumtəhsil məktəbləri üçün müasir binaların tikilib istifadəyə verilməsi, yeni tədris avadanlıqları ilə təchiz olunması və məktəblərin pedaqoji kollektivlərinin komplektləşdirilməsi bu deyilənlərə əyani misaldır. Bu həm də muxtar respublikada insan amilinə yüksək dəyər verildiyini təsdiq edir.

Qədim diyarımızda təhsilin keyfiyyətinin artırılmasına mühüm təsir göstərən amillərdən biri də məktəblərin ixtisaslı pedaqoji kadrlarla təmin olunması və müəllimlərin əməklərinin dövlətimiz tərəfindən layiqincə qiymətləndirilməsidir.

Muxtar respublikada təhsilin hərtərəfli inkişafı məqsədilə həyata keçirilən sistemli tədbirlər sırasında nümunəvi dərslərin də əhəmiyyətini qeyd etmək yerinə düşər. "Naxçıvan Muxtar Respublikasının elm, ali və orta ixtisas təhsili müəssisələri ilə ümumtəhsil məktəbləri arasında əlaqələrin təşkili haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 14 mart tarixli Sərəncamına əsasən təşkil olunan nümunəvi dərslər ölkəmizin intellektual gələcəyi naminə atılan məqsədyönlü addımdır. Sərəncama əsasən Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin, eləcə də ali və orta ixtisas təhsili müəssisələrinin professor və müəllim heyətinin iştirakı ilə muxtar respublikanın ümumtəhsil məktəblərində nümunəvi dərslər təşkil edilir. Elmi dərəcəsi olan müəllimlərlə orta təhsil müəssisələri arasındakı əlaqələrin güclənməsi fənlərin tədrisində mütərəqqi metodların tətbiqinə şərait yaradır.

Nümunəvi dərs layihəsinin daha bir üstünlüyü də ondadır ki, ümumtəhsil məktəblərində təhsil verənlərin bilik və bacarıqları təkmilləşir. Təcrübəli professor və qabaqcıl pedaqoqlar tədris və təlim texnologiyaları sahəsində öz biliklərini gənc nəslə ötürürlər. Bu isə orta məktəblərdə tədris metodlarının daha mütərəqqi təşkilinə, eləcə də şagirdlərin gələcək peşə seçimlərində düzgün qərar vermələrinə müsbət təsir göstərir.

Təhsil müəssisələrinin yeni informasiya-kommunikasiya texnologiyaları sisteminə inteqrasiyası müasir tədris metodlarının, eləcə də interaktiv müstəvidə dərslərin təşkilinə geniş imkanlar açıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamı muxtar respublikada elektron təhsilin tətbiqinin genişləndirilməsinə şərait yaradıb. Sərəncamın uğurlu icrası nəticəsində tariximiz, mədəniyyətimiz, milli dəyərlərimizlə bağlı fənlərin tədrisi prosesində muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələr qurulur. Təsdiq edilmiş qrafikə uyğun olaraq muxtar respublikada fəaliyyət göstərən muzeylərdə təşkil olunan açıq dərslərə eyni anda muxtar respublikanın bütün ümumtəhsil məktəbləri qoşulur, şagirdlərin milli-mənəvi irsimizə aid biliklərinin canlı şəkildə, audiovizual vasitələrlə artırılması təmin edilir.

Cəmiyyət davamlı inkişaf yolundadır. Bu inkişafla birlikdə irəliləmək isə günümüzün əsas tələbidir. Muxtar respublikada davamlı inkişaf xətti ilə irəliləyən təhsil sahəsi prioritet istiqamət kimi daim diqqət mərkəzindədir. Bu məqsədlə təhsil sahəsində çalışanlar üçün seminarlar, müşavirələr, konfranslar təşkil olunur, ictimaiyyətlə, xüsusən də valideynlərlə qarşılıqlı əlaqələr inkişaf etdirilir. Keçirilən müşavirələrdə əldə olunan nailiyyətlər qiymətləndirilir, yol verilən nöqsanlar müəyyənləşdirilərək aradan qaldırılır. Ötən il keçirilən beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Təhsil Nazirliyinin fəaliyyətindəki nöqsanların aradan qaldırılması ilə bağlı tapşırıqlar verərək demişdir: ***"Təhsil Nazirliyi təhsil müəssisələrində tədrisin keyfiyyətinə nəzarəti gücləndirməli, fənn laboratoriyalarının imkanlarından düzgün istifadə edilməli, tədrisdə informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə olunmalıdır. Azərbaycan tarixi və mədəniyyəti ilə bağlı dərslərin təşkilində muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqə davam etdirilməli, nümunəvi dərslərin təşkili diqqətdə saxlanmalıdır".*** Ötən dövrdə əldə olunan nailiyyətlər onu deməyə əsas verir ki, Ali Məclis Sədrinin bu tapşırıq və tövsiyələri əldə rəhbər tutularaq nöqsanlar aradan qaldırılıb, qeyd olunan istiqamətlər üzrə fəaliyyət gücləndirilib.



Sadaladığımız bu tədbirlərin, həyata keçirilən islahatların isə nəticə olaraq bir məqsədi var: sağlam və etibarlı gələcəyimizi təmin etmək. Çünki bu günümüzün gəncləri gələcəyimizi irəli aparan əsas kadr potensialıdır. Gələcəyimiz naminə həyata keçirilən təhsil islahatlarının nəticəsi isə, sözsüz ki, özünü ali təhsil müəssisələrinə qəbulda göstərir. Ümumtəhsil məktəbləri məzunlarının həm buraxılış, həm də ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında yüksək nəticələr əldə etməsi uğurlu təhsil siyasətinin bəhrələridir.

Bunu bu il keçirilən qəbul imtahanlarının göstəriciləri də sübut edir. 2018-2019-cu tədris ili üzrə muxtar respublikanın ümumtəhsil məktəblərini 2734 şagird bitirib. Məzunlardan 2301-i qəbul imtahanlarında iştirak etmək üçün sənəd verib. Bu da məktəbi bitirənlərin 84 faizi deməkdir. İmtahanlarda iştirak edən məzunların 1515 nəfəri ilk turda müxtəlif ali məktəblərə qəbul olunublar. Hazırda ikinci turun qeydiyyatı aparılır. Bu isə o deməkdir ki, tələbə adını qazanan abituriyentlər sırasına daha çox məzunun adı yazılacaq.

Buraxılış və qəbul imtahanlarının nəticələrinə əsasən məzunların 281-i daha yüksək nəticə göstərərək 500-700 arası bal toplayıb. Abituriyentlərin 50-si 600-700, onlardan da 7-si 650-dən yuxarı bal toplayıb. Cari tədris ilində muxtar respublikanın ümumtəhsil məktəblərini bitirən məzunlardan 13-ü qızıl, 16-sı gümüş medala, 45-i isə fərqlənmə attestatına layiq görülüb. Həmin məzunlar onlara göstərilən etimadı doğruldub. Belə ki, ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarında qızıl medala layiq görülən məzunların hər biri 600-dən yuxarı, gümüş medala layiq görülən məzunlar isə 500-700 arası bal toplayıblar. Həmin məzunlar tədris müddəti keçirilən fənn olimpiadalarında da yüksək nəticələr əldə edib, qızıl medala layiq görülənlərdən 9-u, gümüş medala layiq görülənlərdən isə 5-i respublika fənn olimpiadasının qalibi olub.

Adətən, ölkəmizin yüksək inkişafının daha çox mərkəzlərdə, paytaxtlarda özünü göstərməsi reallıq kimi qəbul edilir. Bu, ali məktəblərə qəbul göstəricilərində də belədir. Başqa sözlə desək, şəhərlərdə təhsil alıb imtahan verən məzunlar kənd yaşayış məntəqələrində oxuyan şagirdlərlə müqayisədə daha böyük nəticələr əldə edirlər. Naxçıvan Muxtar Respublikasında son illər qeydə alınan qəbul göstəriciləri isə bu prinsipi dəyişdirib. Nəticələrə nəzər yetirdikdə şəhər və rayon mərkəzləri ilə yanaşı, kəndlərdə, hətta cəmi bir neçə şagirdin təhsil aldığı ən ucqar yaşayış məntəqələrində də yüksək nəticə göstərən abituriyentlər çoxluq təşkil edirlər.



Buna səbəb isə həyata keçirilən infrastruktur quruculuğu nəticəsində kəndlərimizin də şəhərləşməsidir. İnfrastruktur layihələrinin əsas istiqamətini isə təhsil quruculuğu təşkil edir. Yaxın-uzaqlığına, böyük-kiçikliyinə fərq qoyulmadan bütün yaşayış məntəqələrində ən müasir tədris şəraiti yaradılıb, məktəblər ixtisaslı pedaqoji kadrlarla komplektləşdirilib. Bu isə nəticədə, tədrisin keyfiyyətinin yüksəlməsinə və ürəkaçan nəticələrin əldə olunmasına gətirib çıxarır.

Builki qəbul göstəriciləri də dediklərimizə əyani misaldır. Naxçıvan şəhəri və rayon mərkəzlərindəki tam orta məktəblərlə yanaşı, yüksək nəticə göstərənlər sırasında kənd məktəblərimizin də məzunları çoxluq təşkil edir. Məsələn, 2018-2019-cu tədris ili üzrə 650-700 intervalında bal toplayan 7 məzun sırasında Şərur rayonunun Dərvişlər və Culfa rayonunun Ərəzin kənd tam orta məktəblərinin də yetirmələrinin adı vardır. 500-700 arasında nəticə göstərən məzunların sayına görə Naxçıvan şəhər 5 və 12 nömrəli tam orta məktəblər, Heydər Əliyev adına tam orta məktəb, Qızlar liseyi, Qarnizon məktəbi, Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseylə yanaşı, Şərur rayonunun Dərvişlər, Babək rayonunun Nehrəm, Yarımca, Ordubad rayonunun Dəstə, Əndəmic, Culfa rayonunun Yaycı, Əbrəqunus, Kəngərli rayonunun Xok, Şahbuz rayonunun Kükü, Sədərək rayonunun Sədərək kəndindəki tam orta məktəblərdən də imtahanlarda iştirak edən məzunlar çoxdur.

Başqa bir maraqlı məqam da ixtisas seçimi ilə bağlıdır. Ali təhsil müəssisələrinə qəbul olunan məzunların böyük əksəriyyəti şərəfli müəllimlik peşəsini seçib. Elə yüksək bal toplayanların nəticələrinə nəzər yetirək. 500-700 intervalında nəticə göstərən 281 nəfərin 37 faizi, daha dəqiq desək, 104-ü pedaqojiyönümlü ixtisaslara üstünlük veriblər. Bir zamanlar müasir tədris şəraitində dərs aldıqları müəllimləri ilə çiyin-çiyinə işləmək arzusuna çatan gənclərimiz bu gün də az deyil.

Tələbə adını qazanan gənclərlə hər il ənənəvi olaraq görüşlərin keçirilməsi, onların mükafatlandırılması təhsilimizə və gəncliyimizə göstərilən qayğının daha bir ifadəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov hər il qəbul imtahanlarında yüksək nəticə əldə edən gənclərlə keçirilən həmin görüşlərdə onların hər birini və valideynlərini təbrik edərək dəyərli tövsiyələrini verir. Həmin görüşlərdən birində Ali Məclisin Sədri demişdir: ***"Müasir dünyanın reallıqları onu göstərir ki, müstəqillik və sabitlik şəraitində yaşamaq, təhsil almaq heç də hər kəsə nəsib olmur. Hər bir gənc bugünkü müstəqilliyimizin, sabitliyimizin və inkişafımızın qədrini bilməli, ulu öndərimizin əsəri və əmanəti olan qüdrətli Azərbaycanın əsl vətəndaşına çevrilməlidir. Siz bu gün nə qədər yaxşı oxusanız, elmlərə və biliklərə nə qədər dərindən yiyələnsəniz müstəqil Azərbaycanın gələcəyi də bir o qədər parlaq və işıqlı olacaqdır".*** Artıq ənənəyə çevrilən bu görüşlərdə verilən dəyərli tövsiyələr yüksək nailiyyətlərlə tələbə adını qazanan gəncləri daha böyük uğurlara ruhlandırır.

Bütün bunlar onu deməyə əsas verir ki, bu gün Naxçıvan həm də yaxşı təhsil ənənələri və tədris uğurları ilə seçilir. Elə bu səbəbdən də qəbul imtahanlarında müvəffəqiyyət qazanan gənclər seçim edərkən daha çox muxtar respublikanın ali məktəblərinə üstünlük verir, təhsillərini bu diyarda davam etdirməyi qarşıya məqsəd qoyurlar. İmtahanlarda iştirak edərək ilk turda müvəffəqiyyət qazanan məzunların 1168 nəfəri təhsillərini muxtar respublikanın ali təhsil müəssisələrində davam etdirəcək. Bu da tələbə adını qazananların 77 faizinə bərabərdir. Naxçıvan Muxtar Respublikasının ali təhsil müəssisələrini seçən məzunlardan 710-u Naxçıvan Dövlət Universiteti, 231-i "Naxçıvan" Universiteti, 227-si isə Naxçıvan Müəllimlər İnstitutuna qəbul olunub.

*Bir sözlə, müstəqillik illərindən başlanan inkişaf və quruculuq yolu muxtar respublikamızda digər sahələr kimi, təhsilin də hərtərəfli inkişafını təmin edib. Bu isə özlüyündə həm də daha etibarlı gələcək deməkdir. Bu gün davamlı olaraq təhsil sahəsində həyata keçirilən islahatlar və bu islahatların uğurlu nəticələri bir daha əmin olmağa əsas verir ki, təhsilimiz muxtar respublikanın, bütövlükdə isə ölkənin işıqlı gələcəyinə xidmət edir.*

**Gülcamal TAHİROVA**

***Bu yazı "Muxtariyyətin quruculuq, inkişaf və sabitlik dövrü" mövzusunda yaradıcılıq müsabiqəsinə təqdim etmək üçündür.***

*Jurnalistin qeydləri*

# Hava limanı Naxçıvana hava qədər lazımdır



*Düşünürəm ki, hava nəqliyyatının Naxçıvan üçün nə dərəcədə mühüm əhəmiyyətə malik olmasından danışmaq, ətraflı təhlil aparmaq yersiz olar. Çünki hər kəs Naxçıvanın ölkəmizin əsas hissəsi ilə nəqliyyat əlaqələrinin kəsilməsi fonundan baxdıqda bu həqiqəti daha aydın dərk etmiş olar. Və hamı da yaxşı bilir ki, muxtar respublikanın inkişafının ən xarakter cəhətlərindən biri elə blokadanın yaratdığı çətinliklərin mərhələ-mərhələ aradan qaldırılmasıdır. Ərzaq, enerji və müdafiə təhlükəsizliyinin təmin olunması, sosial-iqtisadi inkişafın ahəngdar sürətdə davam etdirilməsi, nəqliyyat əlaqələrinin, xüsusilə mülki aviasiyanın inkişafı sahəsində görülən işlər istər muxtar respublika əhalisi, istərsə də gələn qonaqlar tərəfindən böyük məmnunluqla qarşılanır. Bir sözlə, Naxçıvanda blokada anlayışı yaşadığımız real həyat tərzindən çox-çox arxada qalıb. Hətta belə desək daha düzgün olar ki, unudulub.*

Bu yazıda Naxçıvanda hava nəqliyyatının inkişafı tarixinə qısa nəzər salmaq istəyirəm. Ötən əsrin 90-cı illərinin əvvəllərində Naxçıvanın ölkəmizin əsas hissəsi ilə yeganə əlaqəsi ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövründə tikdirdiyi hava limanı vasitəsilə həyata keçirilirdi. 1990-1993-cü illərdə dahi şəxsiyyət Naxçıvanı işğaldan qorumaqla yanaşı, həm də blokadanın yaratdığı çətinliklərin aradan qaldırılması sahəsində mühüm işlər gördü. Naxçıvan hava limanının uçuş-enmə zolağının ilk dəfə yenidən qurulması, hava nəqliyyatının imkanlarının artırılması da bu dövrə təsadüf edir. Bundan sonra hava nəqliyyatı muxtar respublika üçün həyati əhəmiyyət daşımağa başlamışdır. Ulu öndər ölkəmizə rəhbərliyi dövründə də Naxçıvanda hava nəqliyyatının inkişafını diqqətdə saxlamış, bu siyasətin davamı olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin böyük qayğısı nəticəsində 2004-cü ildə Naxçıvan Hava Limanına Beynəlxalq Hava Limanı statusu verilmiş, 2014-cü ildə hava limanının yeni inzibati binası, 2015-ci ildə "Şərq Terminalı", 2016-cı ildə isə "Qərb Terminalı" istifadəyə verilmişdir.

Ötən illərdə Naxçıvanda hava nəqliyyatının inkişafı sahəsində görülən işlərin ən mühüm cəhətlərindən biri də bu sahədə xidmətin səviyyəsinin yüksəldilməsidir. Hər kəs yaxşı xatırlayar ki, vaxtilə natəmizliyin baş alıb getdiyi hava limanında hansısa sərnişin xidmətindən danışmaq da yersiz idi. Lakin Naxçıvanın ümumi inkişaf mənzərəsinin dəyişməsi hava limanında da müasirləşməyə səbəb oldu. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə mülki aviasiyanın inkişafında yeni mərhələnin əsası qoyuldu. Və bu mərhələ "blokada inkişaf üçün əngəl deyil" prinsipinə əsaslanan böyük quruculuq tədbirlərinin tərkib hissəsi kimi reallaşdırıldı.

Hava limanındakı yöndəmsiz tikililər yığışdırıldı, geniş quruculuq işləri aparıldı, infrastruktur tamamilə müasirləşdirildi, sakinlərin, turistlərin hava nəqliyyatından rahat və təhlükəsiz istifadəsi təmin edildi. Muxtar respublikanın davamlı inkişafı, əhalinin rifahının yaxşılaşması, turizm imkanlarının genişlənməsi hava nəqliyyatına olan tələbatı da özlüyündə artırdı. Bu gün Naxçıvan Beynəlxalq Hava Limanında yerli uçuşlarla yanaşı, beynəlxalq dəhlizlərə çıxış da təmin edilib. İstanbul və Moskva şəhərlərinə daimi uçuşlar həyata keçirilir.

Naxçıvanın qışı çox sərt keçir. Vaxt vardı qar yağan kimi hava limanında reyslər təxirə salınırdı, uçuşlar dayanırdı, insanlar günlərlə burada gecələməli olurdular. Lakin bu gün müasir texnikaların, maşın-mexanizmlərin alınıb gətirilməsi, çətin hava şəraitinə uyğun maddi-texniki bazanın yaradılması bu problemi də aradan qaldırmışdır.

Muxtar respublikaya gələn qonaqlarda Naxçıvan haqqında ilk təəssürat elə hava limanında formalaşır. İstər müasir infrastruktur və xidmət şəraiti, istərsə də işçilərin davranışı, hətta taksi xidmətinin nümunəvi səviyyədə təşkili təqdir olunur. Artıq Naxçıvan Beynəlxalq Hava Limanı Naxçıvanın müasir sərnişindaşıma brendi kimi formalaşıb.

Bütün bunların hamısı mərhələli şəkildə Naxçıvan Muxtar Respublikasının inkişafına, ən əsası isə insanların rahatlığına hesablanmış tədbirlər kimi daha böyük perspektivlər vəd edir.

Ölkə Prezidentinin tapşırığı ilə artan tələbata uyğun olaraq hava limanı üçün yeni uçuş-enmə zolağının inşası da Naxçıvanda hava nəqliyyatı sahəsində fasiləsiz fəaliyyətin təmin olunmasına, beynəlxalq əməkdaşlığın genişlənməsinə, ən əsası isə istənilən geniştutumlu təyyarələrin rahat qəbul və yola salınmasına imkan verəcəkdir.

Avqustun 15-dən etibarən isə Beynəlxalq Mülki Aviasiya Təşkilatının qərarına əsasən Türkiyə üzərindən yeni hava dəhlizinin açılması bir çox cəhətdən əhəmiyyətlidir. *Birincisi,* Naxçıvanın beynəlxalq dəhlizlərə çıxış imkanları artacaq. *İkincisi,* yeni dəhliz vaxta və yanacağa qənaət deməkdir. *Üçüncüsü* isə bu dəhliz gələcəkdə yeni xarici reyslərin açılmasına və turist axınına töhfə verəcəkdir.

Muxtar respublika üçün Türkiyə üzərindən yeni hava dəhlizinin açılması, Naxçıvan Beynəlxalq Hava Limanının yeni uçuş-enmə zolağının inşa olunması bir daha təsdiq edir ki, artıq blokada Naxçıvanda nəqliyyat əlaqələrinin inkişafı üçün də əngəl deyil.

**Ülvi HÜSEYNLİ**

*Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın iclası keçirilib.*

# Komissiyanın iclası keçirilib



İclası giriş sözü ilə komissiyanın sədri Ramilə Seyidova açaraq gündəlikdə duran məsələlərlə bağlı məlumat verib, 2019-cu ilin 6 ayı ərzində görülən işlərlə bağlı məruzə ilə çıxış edib.

Ramilə Seyidova bildirib ki, hesabat dövrü ərzində muxtar respublikada olan bütün uşaqların, o cümlədən hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş, sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının qorunması, təhsilə cəlb olunması, sosial müdafiələrinin təşkili, xüsusi istedadlarının üzə çıxarılması, müalicə olunmaları ilə əlaqədar tədbirlər görülüb. Belə ki, hesabat dövrü ərzində komissiyalar muxtar respublikada məktəbdaxili nizam-intizama əməl etmələrinin yoxlanması, yetkinlik yaşına çatmayanlara spirtli içki və tütün məmulatları satışının, qanunsuz olaraq əməyə cəlb edilməsinin, təhsildən yayınma hallarının qarşısının alınması, eləcə də yeniyetmələrin zərərli vərdişlərdən uzaqlaşdırılması, hüquqlarının və qanuni mənafelərinin qorunması məqsədilə 492 reyd yoxlaması, 139 görüş, müxtəlif mövzularda çoxsaylı maarifləndirici söhbətlər aparılıb, seminarlar keçirilib.

Həmçinin komissiyalar tərəfindən valideyn himayəsindən məhrum olmuş və hər iki valideynini itirmiş uşaqların ailələrə verilməsi də diqqətdə saxlanılıb. Belə ki, hesabat dövrü ərzində muxtar respublika üzrə 2 uşaq himayəyə, 4 uşaq isə qəyyumluğa verilib.

Bəhs olunan dövrdə uşaqların tarixi-memarlıq abidələrinə və muzeylərə ekskursiyaları təşkil edilib, onlar üçün film, tamaşa və konsert proqramları nümayiş olunub, onların istedadlarının üzə çıxarılması üçün müsabiqələr, bilik yarışları, intellektual oyunlar təşkil edilib, rəsm və əl işlərindən ibarət sərgi, müxtəlif mövzularda tədbirlər keçirilib. Həmin tədbirlərdə fərqlənən uşaqlar mükafatlandırılıb.

Bundan əlavə, "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın müvafiq bəndinin icrası ilə əlaqədar olaraq 2019-cu ilin 6 ayı ərzində 20 uşaq məktəbəqədər, məktəbdənkənar təlim-tərbiyə və müalicə-reabilitasiya müəssisələrinə yönləndirilib.

Muxtar respublikada əhalinin, o cümlədən uşaq, yeniyetmə və gənclərin sağlamlığının qorunması, sağlam boya-başa çatması daim diqqət mərkəzində saxlanılır. Belə ki, hesabat dövrü ərzində bir sıra profilaktik tədbirlər həyata keçirilib, 16861 uşaq tibbi müayinə olunub, 15376 uşağa isə profilaktik peyvəndlər vurulub.

Komissiya sədri bildirib ki, hesabat dövründə, ümumilikdə, 12 uşaq müəssisəsində monitorinqlər keçirilib.

Sonra məruzə ətrafında Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin İctimai Təhlükəsizlik İdarəsinin baş inspektoru Fariz Nəsirov, Ordubad Rayon İcra Hakimiyyəti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın sədri Fərqanə Hüseynli, Culfa Rayon İcra Hakimiyyəti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın sədri Sara Hüseynova və Sədərək Rayon İcra Hakimiyyəti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın sədri Mahirə Adnayeva çıxış ediblər. İclasın sonunda komissiyanın qərarı təsdiq olunub.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*Tarixi abidələrimiz milli sərvətimizdir*

# Əcəmi qüdrətinin əsrlərə meydan oxuyan ilk abidəsi

*Naxçıvanın tarixi haqqında fikir yürüdən tədqiqatçılar haqlı olaraq hər zaman qeyd edirlər ki, bu qədim diyar, sadəcə, tarixi zənginliklərə deyil, həm də böyük mədəni irsə malikdir. Bu irsin bir hissəsini günümüzədək gətirib çatdıran isə atababalarımızın əli toxunmuş, hər daşına Naxçıvan sevgisi hopdurulmuş tarixi abidələrimizdir. Bu Ana yurdun hansı səmtinə üz tutsan, orada mütləq bu cür abidələrlə qarşılaşacaqsan. Türbətipli abidələr isə Naxçıvan memarlığının ən gözəl nümunələridirlər, – desək, yəqin ki, yanılmarıq. Böyük ustad Əcəminin yaradıcılığında əsas ana xətt təşkil edən türbə memarlığı nümunələri artıq xalq və region çərçivəsindən çıxaraq dünya memarlıq inciləri sırasında özünəməxsus yer tutub. Belə incilərdən biri də Naxçıvan şəhərində yerləşən Yusif Küseyir oğlu türbəsidir. El arasında bu türbəyə "Atababa günbəzi" də deyirlər.*



Yusif Küseyir oğlu haqqında mənbələrdə geniş məlumat yoxdur. Bu bilgilərə, hələlik, yalnız bu türbənin kitabəsində qısa olaraq rast gəlinir. AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli bir neçə dəfə mətbuata açıqlamalarında bildirib: "Yusif Küseyir oğlu türbəsi 1162-ci ildə Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən tikilib. Digər qaynaqlardan Yusif Küseyir oğlu haqqında bizə məlumatlar gəlib çıxmadığı üçün onun şəxsiyyəti haqqında aydın təsəvvür yaratmaq mümkün deyildir. Ancaq kitabənin verdiyi məlumatlar müəyyən fikir söyləməyə imkan verir. Kitabədə o, "xacə, ərrəis əl-əcəl" ("xacə" – tanınmış rəis) titulları və bir sıra epitetlərlə ("mömin", "islamın gözəlliyi", "şeyxlərin başçısı") təqdim olunub. Orta əsrlərdə "xacə" titulu ilə böyük tacirlərə, görkəmli alimlərə müraciət edilirdi. Bu titulu daşıması onun tacirlər gildiyasının başçısı, "rəis" titulunu daşıması isə Atabəylər dövlətinin paytaxtı olarkən Naxçıvan şəhərinin rəhbəri olduğunu göstərir. Eldənizlərin hakimiyyəti (1136-1225) dövründə şəhərləri hökmdarın müavini sayılan valinin adından idarə edən rəislər, bir qayda olaraq, yerli, tanınmış nəsillərdən seçilirdi. Göründüyü kimi, Yusif Küseyir oğlunun tutduğu şəhər rəisi vəzifəsi kifayət qədər nüfuzlu vəzifə imiş. Həmçinin kitabədə adına əlavə olunan "şeyxlərin başçısı" sözləri isə Yusif Küseyir oğlunun şəhərdə yaşayan, ali ruhani təbəqəsinə və həmin vaxt Naxçıvan şəhərində fəaliyyət göstərən müxtəlif sufi təriqətlərinə məxsus xanəgahların başçılarına rəhbərlik etdiyini göstərir".

Qeyd edək ki, Yusif Küseyir oğlu türbəsi Şərqin böyük memarı Əcəminin bu günümüzə gəlib çatan ilk böyük əsəri kimi qiymətlidir. Türbə sərdabə və yerüstü qüllləvarı hissədən ibarətdir. Türbənin kitabəsində onun kimin şərəfinə və hansı tarixdə inşa edildiyi öz əksini tapıb: "Bu türbə xacə, şanlı rəis, dinin zəkası, İslamın camalı, şeyxlər başçısı Yusif Kuseyir oğlunundur". Digər kitabədə isə "Bənna Əcəmi Əbubəkr oğlu Naxçıvaninin əməlidir" sözləri yazılıb.

Türbə haqqında yazılı ədəbiyyatlarda maraqlı fikirlərə rast gəlmək mümkündür. Memarlıq üzrə fəlsəfə doktoru Qadir Əliyevin "Memar Əcəmi Naxçıvani yaradıcılığında ahəngdarlıq" adlı kitabında oxuyuruq: "İlk baxışdan təmiz həndəsi biçimi və gözəl harmonik quruluşu ilə diqqəti cəlb edən türbə ikiqatlıdır. Türbənin hər iki qatı planda düzgün səkkizbucaqlıdır. Səkkizüzlü plana uyğun olan sərdabə yastı günbəzlə örtülüb. Yüksək mühəndis həllinin nəticəsidir ki, Yusif Küseyir oğlu türbəsi Azərbaycanın qülləvarı türbələri içərisində üst piramidal örtüyü 800 ildən artıq bir müddətdə salamat qalan tək abidədir". Və yaxud Rahibə Əliyevanın "Memar Əcəmi Əbubəkr oğlu Naxçıvani" adlı kitabında qeyd olunur ki, Yusif Küseyir oğlu türbəsi həcm etibarilə bir o qədər böyük tikinti olmasa da, ümumi kompozisiya aydınlığı, yüksək səviyyəli inşaat işləri, gözəl daş nəqqaşlıq işləri memar Əcəminin yüksək sənətkarlığından xəbər verir. Türbənin taxçalarının səthində kərpic dekorun "girih" adlanan xüsusi həndəsi ornamentlərindən istifadə edilib. Girih naxışlarını əmələ gətirən elementlər həndəsi formalardan (çoxbucaqlar, yaxud ulduzlardan) ibarətdir. Ciddi riyazi qanuna tabe olan bu naxışlar bütünlüklə xətlərin bir-biri ilə bağlı ahəngdar birləşməsindən yaranır.

Bəli, Əcəmi yaradıcılığının gözəl nümunələrindən olan türbənin həndəsi quruluşu heyratamizdir. Abidənin bütün səkkiz səthi müxtəlifşəkilli həndəsi ornamentlərlə bəzədilib. Bu ornamentlər bişmiş kiçik kərpiclərdən quraşdırılıb, sonra gəc məhlulu ilə birləşdirilərək səthlərin üzərində möhkəmləndirilib. Eyni zamanda Yusif Küseyir oğlu türbəsinin həm əsas tikintisi, həm də bəzək hörgüsü yalnız eyni materialla – keyfiyyətli bişmiş kərpiclə işlənib. Bu da abidənin aydın və təmiz həndəsi biçiminin bütövlüyünü yaradır.

Bu gün muxtar respublikamızda tarixi abidələrə göstərilən dövlət qayğısı nəticəsində belə memarlıq nümunələrimizə ikinci həyat verilir, onlar ciddi mühafizə olunaraq gələcək nəsillərə ötürülür. Sevindirici haldır ki, bu qayğıdan Yusif Küseyir oğlu türbəsinə də böyük pay düşüb. Artıq cari ilin iyun ayından burada abadlıq-bərpa işlərinə başlanılıb. Hazırda abidənin müəyyən qisim divarlarından düşmüş kərpiclər və kompozisiyadakı bəzi naxışlar bərpa olunur, bura yeraltı elektrik xətti çəkilir, türbənin ətrafındakı müəyyən qismi əhatə edən hissədə mühafizə divarları ucaldılır. Görülən işlər Yusif Küseyir oğlu türbəsinin yerləşdiyi ərazinin abadlığı ilə yanaşı, abidəyə turistlərin cəlbini də artıracaqdır. Nəticədə, muxtar respublikamıza gələn qonaqlar ustad memarın daha bir yaradıcılıq nümunəsi ilə ətraflı tanış olmaq imkanı əldə edəcəklər.

**Səbuhi HƏSƏNOV**

# Naxçıvan axşamları

*İndi şəhərli-kəndli axşamları gündüzlərindən də gözəl olan Naxçıvanımızı seyr edərkən şirin-şəkər uşaqlığımızın nağıllı axşamları canlanır gözlər önündə. Yaylı-qışlı günlərimizin sonunu tamamlayan nağıllı axşamlar... Günün ən sevimli və səbirsizliklə gözlədiyimiz vaxtı idi həmin axşamlar. Çünki həyatımız məktəbdən evə, evdən həyətdə oynamağa, oradan dərs oxumağadək hər gün təkrar olunan günlərdən ibarət idi.*



Oxşar günlərin yeganə fərqi axşamlar nənə-babalarımızdan maraqla dinlədiyimiz nağıllar idi. Bu nağıllar yayda həyətlərimizdəki tut ağaclarının altına açılan, sanki dağlarımızın, yaylaqlarımızın min bir rəngli gülündən-çiçəyindən çalar alan xalça, palaz, kilimlərin üstündə, qışda isə isti sobanın ətrafında söylənərdi. Həyatlarını da bu nağıllara qatıb bizə söyləyən nənələrimizin hələ, sən demə, özünəməxsus nağıllı axşamları var imiş bir zamanlar. Həm də bizim axşamlardan çox fərqli. Qazın, işığın olmadığı dövrlərdə axşamlar yaxın qonşuların, onların uşaqlarının da təndir üzərində qurulan kürsü ətrafında mehribancasına bir-birinə sıxılıb çıraq işığında böyüklərin dərd-sərlərini paylaşmaları, kiçiklərinsə nağıl dinləmələri olurmuş. Zamanından asılı olmayaraq, biri varmış, biri yoxmuşla başlanan həmin nağılların o vaxtlar mövzusu şahların-padşahların 40 otaqlı imarətlərinin gözəlliyi, uşaqlarının bu gözəlliklər içərisində yaşaması, hansısa bir qəhrəman, igid oğlanın əjdahanın qarşısını kəsdiyi suyu onu öldürməklə kəndə gətirib insanların ehtiyacını ödəməsi idisə, uşaqlıq çağları 1980-ci ilin ortaları, 1990-cı illərə təsadüf edənlərin dinlədikləri nağılların mövzusu bunlardan xeyli fərqlənirdi. O nağılların mövzusu real həyatdan götürülmüşdü. 1905-1907, 1918-1920, 1948-1953-cü illərin hadisələrinin davamı olan və 1988-ci ildən yenə də təkrar edilən ermənilərin torpaq iddiaları, tamahları, törətdikləri qanlı faciələr, işğal olunub dağıdılmış rayonlarımız, axıdılan qanlar, itirdiyimiz igid oğul və qızlarımızın həyatı idi söylənən nağılların mövzusu. Uşaqlarla yaşıd nağıllar…

İnsanları böyük çətinliklərlə üz-üzə qoyan digər bir real həyat hadisəsi – Naxçıvanın ermənilər tərəfindən blokadaya salınması, yaranan problemlər çox-çox əvvəlki illərin isti soba ətrafındakından fərqli bir nağıl dünyası yaratmışdı. O illərin nağılları da təbii qazın, elektrik enerjisinin kəsilməsi ucbatından soyuq və işıqsız axşamlarda danışılırdı. Eynilə İkinci Cahan müharibəsinin acılarını yaşayan nənə-babalarımızın nağıllı axşamlarında olduğu kimi. Şirin nağılları ta ki dinləyim, – deyən uşaqların yorğana bükülməsinə baxmayaraq, bir neçə dəqiqədən sonra evin soyuğuna tab gətirmədiyi axşamlarda söylənirdi bu nağıllar. Yuxarıda sadaladığım mövzularla yanaşı, işıqlı şəhər və kəndlər, isti evlər, gözəl küçələr, yaşıl bağbağatlar, çeşidli meyvələr, uşaqların sevimlisi noğul, konfet, şirniyyatlar və bir də onların bəxtəvərliyinin əsas amili – çörək də bu nağılların başlıca mövzusuna çevrilirdi. Həmin nağılları dinlədikcə öz dünyaları unudulur, bu dünya içərisində yeni bir dünya qurulurdu: İşıqlı, isti, bol çörəkli, rəngbərəng şirniyyatlı, attraksionlu, kinoteatrlı bir dünya. Uzaqlaşıb öz dünyamızdan işıqlı küçələrdə dolaşır, bayırda uşaqlarla doyunca qartopu oynayır, isti evlərimizə qayıdır, islanmış əlcəklərimizi, corablarımızı yenidən oynamağa getməyimiz üçün isti sobanın ətrafına qurumağa qoyur, bol çörəkli süfrə ətrafında əyləşib şirin-şirin yemək yeyir, valideynlərimizlə istirahət mərkəzlərinə gedir, dünyamızın ən sevimli “dostları” olan attraksionlarda əylənir, axşamsa evimizə əllərimiz şirniyyatlarla dolu qayıdırdıq. Lakin bu dünyada heç də ürəyimiz istəyən qədər qala bilmirdik. Soyuğun təsirindən silkələnib bu xəyal dünyasından ayrılır, real dünyamıza – soyuq, buz kimi otağımızda çıraq işığında bir-birimizin üzünü ancaq görə bildiyimiz aləmimizə qayıdırdıq. O illərin nağılları həm də heç vaxt sonadək dinlənilmirdi. Buna uşaq dünyasına hakim kəsilən işıqsız, soyuq evlərimiz, bir də tez yatıb, erkən qalxaraq çörək, neft növbələrində sıra tutmaq kimi qayğılarımız imkan vermirdi. Bu nağıllı axşamların sonunu hər bir uşağın yaşamaq istədiyi, arzuladığı gündüzlərdə görə bilmədikləri tamamlayırdı…



O illərin xəyal dünyasından ayrılaraq günümüzə qayıdıram. Budur, axşam olur… Ən ucqar kəndlərimizdən belə, ətrafa gur işıqlar yayılır, hər yer nura qərq olub. Evlərin bütün otaqlarını “doyurub” bayıra səpələnən işıqlar adamın qəlbini qürur hissi ilə doldurmaqla yanaşı, diyarımızın inkişafından, həm də blokada həyatını hələ də yaşaya-yaşaya inkişafından xəbər verir. Zaman ötüb, dəyişilən çox şey olub. Lakin dəyişməyən bir amil də var: naxçıvanlıların qonaqpərvərliyi, səmimiliyi. Bu evlərin hansının qapısını döyüb “Qonaq istəyirsinizmi?” – desəniz, sizi gülər üzlər, bol süfrələr qarşılayacaq. Qışda füsunkar mənzərəsi ilə, yayda sərin, elə bu sərinliyinə görə də qonaqlı-qaralı kəndlərimizin axşamları mənalı, şirin nağıllı, gündüzləri gəzməli-görməli, abad yollu, quruculuq ərməğanlıdır. Abadlaşıb müasirliyə qovuşan və təbii mənzərələri ilə gündüzləri bir tamaşa, axşamları min tamaşa Naxçıvan kəndləri. Və bu kəndlərimizin bənzərsiz axşamları… Həyətlərdəki tut ağaclarının kölgəsində borusundan qıvrıla-qıvrıla tüstü qalxan samovarlar… Ərik, alça, yulğun odunları ilə qaynayan bu samovarların, sanki onların ətrini alan suyundan dəmlənən pürrəngi, bir də onlarla dərdlərin dərmanı olan baldırğan, yarpız, həmərsin, çobanyastığı, qızılgül, qantəpər çayları axşamlar bu insanların həmdəmidir. Həmin axşamların yaraşığı badamın, cəvizin şaqqa-şaqla sındırılıb deyəgülə yeyilməsi, süfrələrə Günəşdən, təmiz şəfalı sulardan qidalanaraq ərsəyə gələn təbii meyvələrin düzülməsidir. Belə axşamların gözəlliyi yayda bu yerlərə üz tutan qohum-əqrəbanın şaqraq gülüşləridir. O insanlar ki hər il gəldiklərində kəndlərimizin bu qədər abadlaşmasını heyranlıqla qarşılayırlar. Axşamüstü abad, işıqlı yollarla kəndlərimizin axşam mənzərələrini seyr etmək üçün gəzintiyə çıxırlar.



Xeyr, Naxçıvan axşamlarının əsrarəngizliyi tək kəndlərimizlə bitmir. Rayon və kəndlərimizə geniş ağuşundan şırımlar açaraq onları bir ana qayğısı ilə ətrafında sıralayan Naxçıvan şəhərinin axşamları bir başqadır. Ötən illərdə qaranlıq axşamlarda dinlədiyimiz nağıllarda xəyalını qurduqlarımız illərdir, reallıqlara çevrilib. İndi şəhərimizin axşamlarının işıqlı küçələri gündüzlərindən də gözəl bir görüntü yaradır. Geniş, güllü-çiçəkli park və xiyabanları, əyləncə, istirahət mərkəzləri axşamlar böyüklü-kiçikli hər kəsi ağuşuna alır. Onlara gözəl istirahət bəxş edir. İllərdir, şəhərli-kəndli əkilən saysız-hesabsız ağaclar təbiət gözəli Naxçıvanımıza yeni bir yaşıl dünya da bəxş edib. Bura gələn qonaqları da heyran edən bu sıx yaşıllıq Naxçıvan axşamlarının doyumsuz mənzərəsini və sərin aləmini yaradır. Bu yaşıllıqların fonunda üz tutduğumuz onlarla ünvan – Mədəniyyət və istirahət parkı, Əyləncə və istirahət mərkəzi, Bazar gölü, “Saat Meydanı” turistik istirahət mərkəzi, “Uzunoba” ailəvi istirahət mərkəzi, kinoteatrlar, kafe və restoranlar Naxçıvan axşamlarının xoş, unudulmaz təəssüratını yaradır. Kəndlərimiz şəhərləşib, şəhərimizin istirahət mərkəzlərinə isə kəndlərimizin samovarı, min bir adlı bitkiləri, ləziz yeməkləri, təndir lavaşı, təbii məhsulları gətirilib. Naxçıvan bütövlükdə – rayonlu, kəndli, şəhərli istirahətin arzuolunan məkanına çevrilib.

Naxçıvan axşamları… Bu axşamlarda uşaqların dünyasını bəzəyən növbənöv attraksionlar, əyləncə qurğuları, teatr və kino, oyun zalları onlara şirin, maraqlı “nağıllar danışır”. Bu nağıllar necə də diqqətlə dinlənilir. Bu nağıllar yarıda kəsilmir. Çünki indi hər bir uşağın işıqlı, isti evi, bol çörəyi, bir də o dövrdən çox fərqli olaraq, sadəcə, öz kiçik dünyalarına aid uşaq qayğıları vardır. Bu qayğılar oxumaq, oynamaq, istirahət etməkdir… Bütün bunları seyr etdikcə o illərin uşaqlıq dövrü ilə bugünkü uşaqlıq arasındakı müqayisəolunmaz fərq yenə də gözlər önünə gəlir, insanı düşündürür və düşündükcə də qürur duyursan ki, biz hansı günlərdən bu günlərə gəlib çıxa bilmişik. 25 ilə yaxın bir dövrün yorulmaz zəhmətinin sayəsində bu gün nail olduqlarımızın sahibinə çevrilmişik.

Bu əsrarəngiz axşamlarda küçələrlə yürüyən hər yaşdan olan insanlarla, xarici qonaqlarla qarşılaşdıqca Ana yurdunun gündüzləri qədər axşamları ilə də fəxr edir insan. Ona görə fəxr edir ki, qonaqlarımızın qarşısına bu gözəlliklərlə çıxa bilirik. Ona görə fəxr edir ki, naxçıvanlılar olmazın çətinliklərinə sinə gərib, söz birliyi, güc birliyi ilə bax bu gün gündüzləri axşamlara, axşamları gündüzlərə sakit, firavan şəkildə “təhvil verə” bilirlər.

*Bir nağıldır Naxçıvan axşamları… Hər kəsə uşaqlıqda axşamlar dinlədiyi nağılları xatırladan nağıldır. Lakin o nağıllarla bu nağılların fərqi reallığında, gözlə görülə bilinməsindədir. Bir də ondadır ki, indi nənə-baba olanlar öz nəvələrinə blokadalı illərdə, 25 il bundan əvvəlki dövrlə bu illərin müqayisəsinin nağılını danışır bu axşamlarda. Naxçıvanın nağıllı axşamları gələcəyimiz olan uşaqlara dünəni tanıdır, bu günü sevdirir, bununla da onlara xoşbəxt gələcək vəd edir…*

**Mətanət MƏMMƏDOVA**

# Xalq teatrı yeni tamaşalar sorağında

*Bu gün muxtar respublikamızda professional teatrların formalaşmasında baza rolu oynayan xalq teatrlarının inkişafı üçün hərtərəfli şərait yaradılıb. Belə teatrlar həm istedadlı gənclərin üzə çıxarılması, həm də hazırladıqları müxtəlifməzmunlu tamaşalarla tamaşaçıların estetik zövqünün formalaşmasında əhəmiyyətli rol oynayırlar.*



Bu il 10 yaşını qeyd edən və Naxçıvandakı belə teatrlar sırasında öz yeri olan Babək Rayon Xalq Teatrı ötən müddət ərzində hazırladığı səhnə əsərləri ilə tamaşaçı rəğbəti qazanıb. Biz də bu teatrın fəaliyyətini ətraflı öyrənmək üçün Babək Rayon Mədəniyyət Sarayına üz tutduq. Teatrın fəaliyyəti ilə bağlı bizi sarayın direktoru Faiq Heydərov məlumatlandırdı.

O bildirdi ki, 2006-cı ildə Cəlil Məmmədquluzadənin “Kamança” pyesini səhnələşdirən Babək Rayon Mədəniyyət Sarayının dram dərnəyinin üzvləri bunun ardınca 2008-ci ildə Ənvər Məmmədxanlının “Xürrəmilərin ağ şahini” əsərindən bir hissəni tamaşaçılara təqdim ediblər. 2009-cu ildə Q.Fiqereydonun “Ezop” əsərini peşəkar səviyyədə hazırlayıb. Elə həmin il dram dərnəyinə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarı ilə “Xalq teatrı” statusu verilib. Kollektivin üzvləri rayonda fəaliyyət göstərən mədəniyyət evlərinin işçiləridir. Hazırda teatrın 8 daimi üzvü vardır.

Faiq Heydərov onu da qeyd etdi ki, xalq teatrı gənc nəslin milli dəyərlər ruhunda tərbiyəsində mühüm rol oynayacaq tamaşalar hazırlamağa çalışır və müəyyən mənada buna nail olub. Belə ki, teatr 2015-ci ildə keçirilən xalq teatrlarının muxtar respublika festivalında birinci yerə layiq görülərək diplomla təltif olunub. 2017-ci ildə keçirilən festivalda Hüseynbala Mirələmovun “Xəcalət” povesti əsasında hazırlanmış tamaşa ilə çıxış edən teatr “Ən aktual mövzulu tamaşa” nominasiyasında birinci dərəcəli diploma layiq görülüb.

Teatrın aktyoru, Azərbaycan Respublikasının Əməkdar artisti Vidadi Rəcəbli söhbətə qoşularaq bildirdi ki, Babək Rayon Xalq Teatrı öz repertuarına bu günə qədər 14 tamaşa daxil edib. “Ezop”, “Solğun çiçəklər”, “Ana”, “Bəxtsiz cavan”, “Beş manatlıq gəlin” və digər tamaşaları ilə Culfa, Ordubad, Kəngərli, Şərur, Sədərək və Naxçıvan şəhərlərində də uğurla çıxış edib.

Vidadi Rəcəblinin sözlərinə görə, muxtar respublikamızın bölgələrində müstəqil teatrların yaradılması və onun inkişafına dəstək göstərilməsi bu sahəyə olan diqqət və qayğının bariz nümunəsidir. Bunun nəticəsidir ki, rayonlarda fəaliyyət göstərən xalq teatrları bu gün peşəkar kadr hazırlığında baza rolunu oynayır. Babək Rayon Xalq Teatrında fəaliyyət göstərən üzvlərdən bir neçəsi artıq peşəkar səviyyədə püxtələşərək bu gün Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında öz fəaliyyətlərini davam etdirirlər. Bu isə teatrımızın uğurudur.

Vidadi Rəcəbli qeyd etdi ki, onlar yazıçı Əfqan Əsgərovun “Qız atası” komediyasını uğurla səhnələşdiriblər. Rejissorluğunu etdiyi səhnə əsərinin quruluşçu rejissoru Yusif Əliyev, musiqi tərtibatçısı Cabir Məmmədovdur. Rollarda Rasim Qasımov, Ələkbər İsmayılov, Elsevər Məmmədov, Nuray Mehdiyeva çıxış edirlər. Teatr kollektivi həmin tamaşa ilə bu il keçirilən xalq teatrlarının muxtar respublika festivalında uğurla çıxış edib.

Qeyd edək ki, iyulun 23-də Babək Rayon Xalq Teatrının yaradılmasının 10 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Teatr 10 illik fəaliyyəti dövründə hazırladığı tamaşalardan parçaları uğurla təqdim edib.

**Pərviz HACILI**

**İtmişdir**

Məmmədov Eldəniz Muxtər oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 553